AZƏRBAYCAN RESPUBLİKASININ
NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ

ƏMR

№ 11/1

Bakı şəhəri "06" iyul **2018-ci il**

Sənədlərin reviziyalarının təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının mülki aviasiya sistemində sənədləşmənin ICAO və Avropa standartlarına uyğunlaşdırılması məqsədi ilə, Çikaqo Konvensiyasının 37-ci maddəsinin tələblərinə müvafiq olaraq aşağıdakı sənədlərin reviziyalarının qüvvəyə minməsi zəruridir. Həmin düzəlişlərin təsdiq edilməsi məqsədi ilə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"nin 5.6.6-cı bəndini rəhbər tutaraq, **əmr edirəm:**

1. 06 iyul 2018-ci il tarixindən aşağıdakı sənədlərin reviziyaları təsdiq edilsin.

	Sənəd		Qüvvəyə minmə tarixi
	Sənədin nömrəsi	Sənədin adı	
1	HB-GM-003	Personnel Licensing Inspector Handbook	Nəşr №2-dd.01.05.2018 rev.1 dd.06.06.2018
2	HB-GM-004	Aeromedical İnspector Handbook	Nəşr №2-dd.04.05.2018
3	HB-GM-005	Dangerous Goods Inspector Handbook	Nəşr №2-dd.10.05.2018
4	HB-GM-006	Operations Inspector Handbook	Nəşr №2-dd.11.05.2018
5	HB-GM-007	Airworthiness Inspector Handbook	Nəşr №1-Rev.1.7 dd.03.07.2018
6	HB-GM-008	Aerodrome Inspector Handbook	Nəşr №2-dd.14.05.2018
7	HB-GM-010	Surveillance and Safety Resolution Handbook	Nəşr №2-dd.21.06.2018
8	AAR-ANS-002	АПА-Обслуживание Воздушного Движения (ОВД(ATS))	Nəşr №3.-Rev.3-17.04.2018
9	AAR-ANS-003	AAR-Aeronautical Charts	Nəşr №1-Rev.2-06.07.2018
10	AAR-ANS-005	AAR-AERONAUTICAL INFORMATION SERVICE	Nəşr №1.1.-Rev.4-17.04.2018
11	AAR-ANS-007	AAQ-Radiomübadilə Qaydaları-az	Nəşr №1-Rev.1-17.04.2018
12	AAR-ANS-007	AAR-Radiotelephony Manual-en	Nəşr №1-Rev.1-17.04.2018
13	AAR-ANS-008	АПА-Метеорологическое Обеспечение Авиации (МОА)-ru	Nəşr №2-Rev.1-21.06.2018
14	AAR-ANS-009	AAR-Units Of Measurement (UOM)	Nəşr №1-Rev.1-17.04.2018
15	AAR-ANS-010	АПА-Авиационная электросвязь-Использование авиационного радиочастотного спектра	Nəşr №1-Rev.1-07.04.2018
16	AAR-ANS-011	АПА-Авиационная электросвязь-Системы наблюдения и предупреждения столкновений	Nəşr №1- Rev.1-07.04.2018
17	AAR-ANS-012	АПА-Авиационная электросвязь Системы речевой связи	Nəşr №1-Rev.1-07.04.2018

18	AAR-ANS-013	АПА-Авиационная электросвязь Системы передачи цифровых данных	Nəşr №1-Rev.1-07.04.2018
19	AAR-ANS-014	AAR-Instrument Flight Procedure Design (IFPD)-en	Nəşr №1-Rev.1-17.04.2018
20	AAR-ANS-015	АПА-Организация Воздушного Движения (ОрВД)-ru	Nəşr №1-Rev.1-17.04.2018
21	AAR-ANS-016	АПА-Разработка Летных Процедур-ru	Nəşr №1-Rev.1-17.04.2018
22	AAR-ANS-017	АПА-Требование к Профессиональной Подготовке Персонала по Электронным Средствам для Обеспечения Безопасности Воздушного Движения (ATSEP) при Эксплуатации Радиотехнического Оборудования и Связи в Гражданской Авиации	Nəşr №1-dd.22.12.2017
23	AAR-GM-001	AAQ-rın işlənib hazırlanma və dəyisdirilmə qaydaları-az	Nəşr №1-Rev.2-25.04.2018
24	AAR-GM-001	АПА-Процедура Разработки и Изменений АПА-ru	Nəşr №1-Rev.2-25.04.2018
25	AAR-GM-002	AAQ-Administrativ Əməliyyatlar	Nəşr №1-Rev.1-25.04.2018
26	AAR-OPS-001	AAR-OPS 1-en	Nəşr №3-Rev.2-25.04.2018
27	AAR-OPS-002	AAR-OPS 3-en	Nəşr №1-Rev.3-25.04.2018
28	AAR-OPS-003	AAQ-AMC & IEM to AAR-Ops-1-az	Nəşr №1-Rev.1-25.04.2018
29	AAR-OPS-005	AAQ-FSTD (A) Uçuşu imitasiya edən təlim qurğuları (təyyarə)-az	Nəşr №1-Rev1-25.04.2018
30	AAR-OPS-006	AAQ-FSTD (H) Uçuşu imitasiya edən təlim qurğuları (helikopter)-az	Nəşr №1-Rev1-25.04.2018
31	AAR-OPS-007	AAQ-FSTD (A)(H) Uçuşu imitasiya edən təlim qurğulari (STD.FSTD)(JAA AGM Sec 6 Part 2 rev 01.02.2008)-az	Nəşr №1-Rev.1-25.04.2018
32	AAR-OPS-009	AAR-Flight Dispatch-en	Nəşr №1-16.04.2018
33	AAR-PEL-001	АПА-FCL GEN-ru	Nəşr №2-Rev.4-16.05.2018
34	AAR-PEL-002	АПА-FCL 1 (A)-ru	Nəşr №1-Rev.2-16.05.2018
35	AAR-PEL-003	АПА-FCL-2 (H)-ru	Nəşr №1-Rev.2-16.05.2018
36	AAR-PEL-004	AAQ-FCL-3 Aviasiya Personalının (Heyətlərin)Tibbi Müayinəsi	Nəşr №1-Rev.5-16.05.2018
37	HB-GM-013	Application and Granting Exemptions Handbook	Nəşr №2-dd.03.05.2018
38	HB-GM-014	Mandatory Occurrence Reporting (MOR) System Handbook-en	Nəşr №1 Rev.1-dd.03.May.2018
39	HB-OPS-002	Extended Diversion Time Operations (EDTO) Handbook -en	Nəşr №2.-dd.03.May.2018
40	PC-CRT-001	Procedure for maintenance and storage of the Civil Aircraft State Register	Nəşr №2-dd.03.05.2018
41	PH-CRT-001	Air Operator Certification (AOC) Advisory Pamphlet	Nəşr №2-dd.03.05.2018
42	PH-CRT-003	The AAR-147 maintenance training organization (MTO) Approval Advisory Pamphlet	Nəşr №2-dd.03.05.2018

2. Göstərilən sənədlərin yenilənmiş versiyaları Dövlət Mülki Aviasiya Agentliyinin rəsmi saytında yerləşdirilsin.

3. Əmrin icrasına nəzarət direktorun müavini Hacıağa Əliyevə həvalə edilsin.

Direktor **Arif Məmmədov**

Dövlət Mülki Aviasiya Agentliyinin
direktorunun
06 iyun 2018-ci il tarixli 11/1 №-li
Əmri ilə təsdiq edilmişdir

AZƏRBAYCAN AVİASİYA QAYDALARI – UÇUŞU İMİTASİYA EDƏN TƏLİM QURĞULARI (HELİKOPTER) (AAQ–FSTD (H))

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № AAR-OPS-006

Nəşr № 01

Qüvvəyə minmə tarixi: 01 yanvar 2010-cu il

1 №-li 25 aprel 2018-ci il tarixli Dəyişiklik

Bakı şəhəri

https://www.caa.gov.az

ƏLAVƏ VƏ DƏYİŞİKLƏR

Əlavənin №-si	Sənədin №-si, Təsdiqin tarixi	Qüvvəyə minmə tarixi	İmza
01	25.04.2018	25.04.2018	QC

ƏLAVƏ VƏ DƏYİŞİKLƏR

Əlavənin №-si	Sənədin №-si, Təsdiqin tarixi	Qüvvəyə minmə tarixi	İmza

MÜQƏDDİMƏ

Azərbaycan Respublikasında mülki aviasiyanın inkişafı xüsusilə cox miqdarda qərb texnikasının alınması ilə səciyyələnir və bu, həmin texnikanın istismarı üzrə yüksək beynəlxalq standartların tətbiqini tələb edir. 2009-cu ilin avqust ayında Dövlət Mülki Aviasiya Agentliyi (DMAA) ilə Uçuşların Təhlükəsizliyi üzrə Avropa Agentliyi (EASA) arasında imzalanan "İş Sazişi"nin ("Working Arrangement") əsas tələblərindən biri istifadə edilən avadanlığın sertifikatlaşdırılmasıdır. Həmin sənədə olan 1 №-li Əlavədə "JAR FSTD-H"–"Uçuşu imitasiya edən təlim qurğuları"nın tətbiq edilməsi üzrə DMAA tərəfindən öhdəlik götürülmüşdür. Eyni zamanda sazişdə bu işin milli qanunvericilik cərçivəsində yerinə yetirilməsi məqbul hesab edilib. Müasir helikopterlərin trenajorları uçuşu tam imitasiya edir və uçuş heyətlərinin hazırlıq prosesinə tələb olunan vəsaitlərin qənaət edilməsi, təlimin yüksək səviyyədə təhlükəsiz yerinə yetirilməsi üçün imkan yaradır.

Yuxarıda sadalananları və Azərbaycan Respublikasında trenajorların istehsal edilmədiyini, lakin istismarçılar tərəfindən müxtəlif hava gəmiləri trenajorlarının ölkədən kənarda kirayələndiyini və gələcəkdə alınacağını nəzərə alaraq, mülki aviasiyada istifadə edilən avadanlığın sertifikasiyasının Avropa standartlarına uyğunlaşdırılması məqsədi ilə Avropa Birliyində tətbiq edilən "JAR FSTD H" sənədi əsasında hazirkı "AAQ-FSTD H" sənədi hazırlanmışdır.

Tələblər hazırlanarkən Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İKAO) 9625 nömrəli sənədi-"Uçuş Trenajorlarının Texniki Tələblərə Uyğunluğu üzrə Təlimat"dan, həmçinin lazımi hallarda mövcud Avropa qaydalarından və Amerika Birləşmiş Ştatlarının Federal Aviasiya Qaydalarından istifadə edilmişdir.

"AAQ-FSTD H" sənədində istifadə edilmiş və ümumilikdə məqbul hesab olunan anlayış və ixtisarlar "JAR-1" sənədinin "Anlayış və ixtisarlar" bölməsində verilmişdir. Bununla belə, "AAQ-FSTD H" sənədində istifadə edilmiş və adətən "AAQ-FSTD H" yarımhissəsi üçün səciyyəvi olan anlayış və ixtisarlar müvafiq yarımhissədə və ya istisna hal kimi izahedici materiallarda göstərilmişdir.

Gələcəkdə DMAA-nın Metodik Şurası sənəddə düzəlişlər edilməsini təklif edə bilər.

GİRİŞ

AAQ-FSTD H

İlkin buraxılış

AAQ-FSTD H I Hissədə 3 yarımhissədən (A, B və C) və II Hissədə 2 yarımhissədən (B və C) ibarətdir.

AAQ-FSTD H sənədində sadəcə olaraq JAR STD 1H, 2H, 3H və 4H sənədləri birləşdirilmişdir.

I Hissə

C yarımhissəsi

Terminlər və əsas normativ proseslər birləşdirilib. AAQ-FSTD H.030 sənədinə Əlavə 1-də verilmiş Standartlar Cədvəlində bütün təlim qurğuları üçün standartlar verilmişdir.

II Hissə

B yarımhissəsi

Terminlər və ixtisarlar Hava Gəmisinin STD standartları üzrə sənədlərlə izah edilir və uyğunlaşdırılır.

C yarımhissəsi

Normativ proseslər birləşdirilib.
Obyektiv sınaqlar cədvəlində (AAQ-FSTD H.030-a ACJ) bütün təlim qurğularına aid sınaq tələbləri verilmişdir. Funksiyalar və subyektiv sınaqlar cədvəlində (AAQ-FSTD H.030-a ACJ) bütün təlim qurğuları üçün sınaq tələbləri verilmişdir.

A YARIMHİSSƏSİ - TƏTBİQ EDİLMƏ

AAQ-FSTD H.001 Tətbiq edilmə

AAQ-FSTD H sənədi bütün düzəlişlərlə birlikdə Uçuşu İmitasiya Edən Təlim Qurğularının (FSTD) ilkin uyğunluq səviyyəsini təsdiq etmək üçün müraciət edən şəxslərə, təşkilatlara və ya müəssisələrə (FSTD istismarçılarına) tətbiq edilir.

AAQ-FSTD H sənədinin DMAA tərəfindən təsdiq edilmiş və ilkin uyğunluq sənədinin verilməsi üçün istifadə edilmiş variantı FSTD-nin kateqoriyası dəyişdirilənə qədər, onun uyğunluq sertifikatının təzələnməsi üçün də tətbiq edilir.

FSTD-nin uyğunluğunun bundan əvvəl təsdiq olunmasına baxmayaraq, FSTD istifadəçiləri təsdiq edilmiş təlim proqramlarının bir hissəsi kimi ondan istifadə etmək üçün də icazə almalıdırlar.

B YARIMHİSSƏSİ – ÜMUMİ

AAQ-FSTD H.005. Terminlər

FSTD-nin tələblərə uyğunluğunun təmin edilməsinin texniki mürəkkəbliyi ilə əlaqədar olaraq, bütün sənəddə standart terminlərdən istifadə etmək vacibdir. AAQ-FSTD (H) tələblərinə uyğunluğu təmin etmək üçün aşağıdakı əsas termin və ixtisarlardan istifadə edilməlidir. Digər termin və ixtisarlar FSTD H.005-ə ACJ-də verilmişdir.

(a) *Uçuşu İmitasiya edən Təlim Qurğuları (FSTD)*. Bura daxildir: Uçuş şəraitini tam əks etdirən təlim trenajoru (FFS), Uçuş təlimi qurğusu (FTD), Uçuş və naviqasiya prosedurları üzrə təlim qurğusu (FNPT).

(b) *Uçuş şəraitini tam əks etdirən trenajor (FFS)*. Helikopterin yerdə və uçuş zamanı idarə olunmasında istifadə edilən bütün avadanlıq və kompüter proqramlarından, uçuş heyəti kabinəsindən kənardakı görünüşü təqdim edən vizual sistemdən və hərəkəti imitasiya edən sistemdən ibarət olan, FFS trenajorunun texniki təyinatı üçün qəbul edilmiş minimum standartlara cavab verən müəyyən növ, model və ya seriyalı helikopternin uçuş heyəti kabinəsinin tam ölçülü modeli.

(c) *Uçuş təlimi qurğusu (FTD)*. Müəyyən helikopter tipinin cihazlar, avadanlıq, panellər və idarəetmə qurğularından ibarət olan uçuş heyəti kabinəsinin tam ölçülü modeli; və ya qurğuya daxil edilən sistemlər çərçivəsində helikopternin yerdə və uçuş zamanı vəziyyətini göstərən bütün avadanlıq və kompüter proqramlarından ibarət olan, müəyyən helikopter tipinin uçuş heyəti kabinəsi. Həmin qurğuda hərəkəti imitasiya edən və ya vizual sistemlər tələb olunmur və bunlar FTD qurğularına olan tələblərə uyğunluq üzrə minimum standartlara uyğun gəlir.

(d) *Uçuş və naviqasiya prosedurları üzrə təlim trenajoru (FNPT)*. Müxtəlif sistemlərin helikopterdə yerinə yetirdikləri funksiyalar çərçivəsində müəyyən helikopterni və ya müəyyən sinifli helikopterləri uçuş zamanı göstərmək üçün lazım olan avadanlıq və kompüter proqramları da daxil olmaqla uçuş heyəti kabinəsini və ya uçuş heyəti kabinəsində olan iş mühitini əks etdirən təlim qurğusudur. FNPT qurğusu tələblərə uyğunluq üzrə xüsusi minimum standartlara uyğun gəlir.

(e) *Digər Təlim Qurğuları (OTD)*. Uçuş heyəti kabinəsinin tam iş mühitinə ehtiyac olmadıqda təlim məqsədləri üçün istifadə edilən, FFS, FTD və FNPT tədris vasitəsi.

(f) *Uçuşu İmitasiya edən Təlim Qurğularının istifadəsi üçün **icazə** (FSTD-nin İstifadə Təsdiqi)*. Helikopter ilə FSTD H arasında fərqlər, həmçinin şirkətin istismar və təlim imkanları nəzərə alınmaqla xüsusi tələblərə uyğun səviyyədə olan FSTD trenajorlarının müəyyən hədd çərçivəsində istifadə edilməsi üçün DMAA tərəfindən fiziki şəxslər, təşkilatlar və ya müəssisələrə verilən icazə.

(g) *Uçuşu İmitasiya edən Təlim Qurğularının İstismarçısı (FSTD İstismarçısı)*. Müəyyən FSTD-nin istifadəsi və tələblərə uyğunluq səviyyəsinin saxlanılması ilə bağlı birbaşa DMAA qarşısında cavabdeh olan şəxs, təşkilat və ya müəssisə.

(h) *Uçuşu İmitasiya edən Təlim Qurğularının İstifadəçisi (FSTD İstifadəçisi).* FSTD-dən istifadə etməklə təlim, yoxlanış və testlərin keçirilməsi üçün müraciət edən şəxs, təşkilat və ya müəssisə.

(i) *Uçuşu İmitasiya edən Təlim Qurğularının Tələblərə Uyğunluq Səviyyəsi (FSTD Uyğunluq səviyyəsi).* FSTD-nin texniki imkanlarının sənədlərdə müəyyən edilmiş tələblərə uyğunluq səviyyəsi.

(j) *Trenajorun tələblərə uyğunluq səviyyəsinin sınağı üzrə təlimat (QTG).* Həm helikopteryə, həm də FSTD-ə dair istifadə edilmiş məlumatlar daxil edilməklə, müəyyən hüdud çərçivəsində, FSTD-nin uçuş-texniki göstəriciləri və istismar keyfiyyətinin helikopter üçün qəbul edilən standartlara uyğun gəldiyini və bütün tətbiq edilə bilən normativ tələblərə əməl edildiyini nümayiş etdirməsi üçün nəzərdə tutulan sənəd.

C YARIMHİSSƏSİ – UÇUŞU İMİTASİYA EDƏN TƏLİM QURĞULARI

AAQ-FSTD H.015 FSTD-nin Uyğunluq Sertifikatının alınması üçün ərizə

(Bax AAQ-FSTD H.015-ə ACJ № 1)
(Bax AAQ-FSTD H.015-ə ACJ № 2)

(a) FFS, FTD və ya FNPT qurğularının tələblərə uyğunluğunun qiymətləndirilməsi üçün müraciət edən FSTD istismarçısı 3 ay əvvəldən DMAA-ya ərizə təqdim etməlidir. Müstəsna hallarda DMAA-nın razılığı ilə bu müddət bir ayadək azaldıla bilər.

(b) *FSTD Uyğunluq Sertifikatı* DMAA tərəfindən FFS, FTD və ya FNPT qurğularının tələblərə uyğunluğunun müsbət qiymətləndirilməsindən sonra verilir.

AAQ-FSTD H.020 FSTD-nin Uyğunluq Sertifikatının etibarlılığı

(Bax AAQ-FSTD H.020-ə ACJ)

(a) DMAA tərəfindən digər qaydada müəyyən edilmədiyi halda FSTD-nin uyğunluq sertifikatı 12 ay müddətində qüvvədə qalır.

(b) FSTD-nin uyğunluq səviyyəsinin təkrar qiymətləndirilməsi tələblərə uyğunluq səviyyəsinə dair sənədin etibarlılıq müddəti başa çatmazdan əvvəlki 60 gün ərzində istənilən vaxt keçirilə bilər. Yeni etibarlılıq müddəti uyğunluq səviyyəsinə dair əvvəlki sənədin qüvvədən düşdüyü andan başlayır.

(c) AAQ-FSTD H sənədinin müddəalarına riayət edilmədikdə, DMAA FSTD sertifikatının ilkin alınmasına imtina edə və ya verilmiş sertifikatı geri ala, ləğv edə, müvəqqəti dayandıra və ya dəyişdirə bilər.

(d) Hər bir BİTD modelinin seriya nömrəsi üçün verilmiş sertifikat, DMAA-nın müddəti azaltdığı hallar istisna olmaqla, istismara başlandığı andan 36 ay müddətində qüvvədə qalır. Sertifikatın müddətinin uzadılması üçün müraciət edilməsinə görə istismarçı məsuliyyət daşıyır.

AAQ-FSTD H.025 FSTD istismarçılarına tətbiq edilən qaydalar

(Bax AAQ-FSTD H.025-ə ACJ № 1)
(Bax AAQ-FSTD H.025-ə ACJ № 2)

FSTD istismarçısı FSTD Uyğunluq Səviyyəsi üçün müəyyən edilmiş fəaliyyət, funksiyalar və digər xüsusiyyətləri təmin etmə qabiliyyətini aşağıdakı qaydada nümayiş etdirməlidir:

(a) Keyfiyyət Sistemi

(1) Keyfiyyət Sistemi hazırlanmalı və FSTD Uyğunluq Səviyyəsinin saxlanmasını təmin etmək üçün tələb olunan prosedurlara riayət edilməsinə və

onların uyğunluğuna nəzarət edən Keyfiyyət Meneceri təyin olunmalıdır. Lazımi hallarda düzəlişlərin edilməsini təmin etmək məqsədilə uyğunluğun monitorinqinə Cavabdeh Menecerə hesabat da daxil olacaq.

(2) Keyfiyyət Sisteminə daxil olan Keyfiyyətin Təmini Proqramında müəyyən edilmiş fəaliyyətin, funksiyaların və xüsusiyyətlərin bütün tətbiq olunan tələblərə, standartlara və prosedurlara uyğun aparıldığını yoxlamaq üçün nəzərdə tutulmuş prosedurlar verilmişdir.

(3) Keyfiyyət Sistemi və Keyfiyyət Meneceri DMAA tərəfindən məqbul hesab edilməlidir.

(4) Keyfiyyət Sistemi uyğun sənədlərdə təsvir edilməlidir.

(b) Təkmilləşdirmə. Vacib dəyişiklikləri, xüsusilə aşağıda qeyd edilmiş dəyişiklikləri aparmaq üçün istismarçının təşkilatı, DMAA və müvafiq istehsalçılar arasında daimi əlaqə saxlanılmalıdır:

(1) Helikopterdə aparılan, təlim və yoxlamalar üçün vacib olan dəyişikliklər uçuşa yararlılıq direktivi ilə tələb olunub-olunmamasından asılı olmayaraq, bütün aidiyyəti olan FSTD-a tətbiq edilməlidir.

(2) Hərəkət və vizual sistemlər də daxil olmaqla, FSTD-a edilən dəyişikliklər (tətbiq olunan hallarda), yəni:

(i) Təlim və yoxlamalar üçün vacib olan hallarda FSTD istismarçıları FSTD-ni təkmilləşdirəcək (məsələn, məlumatların təzələnməsi). FSTD texniki avadanlığında və proqram təchizatında edilən və istifadəyə, fəaliyyətə və sistemlərin işinə təsir edən dəyişikliklərin, yaxud hərəkət və vizual sistemdə hər hansı əsaslı dəyişikliklərin ilkin uyğunluq meyarına necə təsir etməsi qiymətləndirilməlidir. FSTD istismarçıları hər hansı təsirə məruz qalmış sınaqlar üçün düzəlişlər hazırlayacaq. FSTD istismarçısı FSTD-ni yeni meyara uyğun sınaqdan keçirəcək.

(ii) DMAA-ya hər hansı bir əsaslı dəyişikliklərə dair əvvəlcədən xəbər verilir və FSTD istismarçısının apardığı sınaqların məqbul olması yoxlanılır. Dəyişikliklərdən sonra FSTD-ni təlim üçün istifadəyə qaytarmazdan əvvəl onun xüsusi yoxlanmasına ehtiyac ola bilər.

(c) Quraşdırmalar. FSTD-nin təhlükəsiz və etibarlı istismar üçün münasib olan mühitdə qurulması təmin edilməlidir.

(1) FSTD istismarçısı FSTD-nin və onun quraşdırılması üzrə işlərin yerli səhiyyə və əməyin təhlükəsizliyi qaydalarına uyğun olmasını təmin etməlidir. Bununla belə, trenajordan istifadə edən və ona texniki xidmət göstərən şəxslərin texniki təhlükəsizlik avadanlığından və fövqəladə hallarda görülməli olan ilkin tədbirlərdən xəbərdar olmasını təmin etmək üçün onlar ən azı FSTD-nin təhlükəsizlik qaydaları ilə tanış edilməlidir.

(2) FSTD istismarçısı FSTD təhlükəsizlik sisteminin avadanlığını, məsələn, fövqəladə hallarda dayandırma və işıqlandırma qurğularını ən azı ildə bir dəfə yoxlayaraq qeydlər aparmalıdır.

(d) Əlavə avadanlıq. FSTD-ya əlavə avadanlıq quraşdırıldığı halda, ona dair texniki uyğunluq tələb olunmasa da, həmin avadanlığın təlimin keyfiyyətinə mənfi təsir göstərmədiyi müəyyən edilməlidir. Bu səbəbdən hər hansı növbəti dəyişiklik aparıldıqda, avadanlıq istismardan çıxarıldığı və ya istismara yararsız vəziyyətə düşdüyü zaman FSTD-nin tələblərə uyğunluğu yenidən qiymətləndirilməlidir.

AAQ-FSTD H.030 1 avqust 2008-ci il tarixdə və ya bu tarixdən sonra tələblərə uyğunluq səviyyəsi yoxlanılmış FSTD-yə dair tələblər

(Bax AAQ-FSTD H.030-a Əlavə 1)
(Bax AAQ-FSTD H.030-a ACJ № 1)
(Bax AAQ-FSTD H.030-a ACJ № 2)
(Bax AAQ-FSTD H.030-a ACJ № 3)
(Bax AAQ-FSTD H.030-a ACJ № 4)

(a) 1 avqust 2008-ci il tarixdə və ya bu tarixdən sonra ilkin qiymətləndirmə üçün təqdim edilmiş hər bir FSTD tətbiq olunan AAQ-FSTD H meyarına əsasən qiymətləndiriləcək. FSTD-nin təkrar qiymətləndirilmələri ilkin yoxlanış zamanı istifadə edilmiş AAQ-FSTD H variantına uyğun aparılır.Təkmilləşdirmə AAQ-FSTD H sənədinin hazırda qüvvədə olan variantına əsasən aparılacaq.

(b) FSTD qiymətləndirilməsi uçuş heyəti üzvünün müvafiq təlim və yoxlama prosesinin tamamlanması üçün vacib olan sahələrdə həyata keçirilir.

(c) FSTD Hşağıdakı sınaqlardan keçməlidir:

(1) Yoxlama sınaqları ;

(2) Funksional və subyektiv sınaqlar.

(d) FSTD üçün Uyğunluq Səviyyəsi müəyyən edilməzdən əvvəl təqdim edilmiş məlumat DMAA üçün məqbul hesab edilən qaydada təqdim olunmalıdır.

(e) FSTD istismarçısı DMAA üçün məqbul hesab edilən forma və qaydada "Trenajorun tələblərə uyğunluq səviyyəsinin sınağı üzrə təlimat"ı (QTG) təqdim edir.

(f) Yalnız ilkin və ya təkmilləşdirmədən sonra qiymətləndirmə başa çatdıqdan və aşkar edilmiş uyğunsuzluqlar DMAA üçün məqbul dərəcədə aradan qaldırıldıqdan sonra QTG təsdiq edilir. DMAA-nin iştirakı ilə aparılmış sınaqların nəticələri daxil edildikdən sonra təsdiq edilmiş QTG Əsas QTG (MQTG) hesab olunur və FSTD Uyğunluq səviyyəsi və bütün növbəti təkrar qiymətləndirmələr üçün əsas kimi istifadə edilir.

(g) FSTD istismarçısı:

(1) MQTG daxil edilmiş sınaqları DMAA-nın apardığı illik qiymətləndirmələr arasında tədricən yerinə yetirəcək. Nəticələrin tarixi qeyd ediləcək və FSTD standartlarına riayət edildiyini FSTD İstismarçısına və DMAA-ya sübut etmək üçün saxlanılacaq; və

(2) Uyğunluğu təsdiq olunmuş FSTD-nin texniki avadanlığı və proqram təchizatının fasiləsiz istismara yararlılığını təmin etmək üçün Konfiqurasiyaya Nəzarət Sistemi təşkil etməlidir.

AAQ-FSTD H.031 1 aprel 2001-ci ildə və ya bu tarixdən sonra və 1 avqust 2008-ci il tarixdən əvvəl tələblərə uyğunluq səviyyəsi yoxlanılmış Uçuş şəraitini tam əks etdirən trenajora (FFS) dair tələblər

1 aprel 2001-ci ildə və ya bu tarixdən sonra və 1 avqust 2008-ci il tarixdən əvvəl ilkin qiymətləndirmə üçün təqdim edilmiş FFS-ə avtomatik olaraq cari etibarlılıq müddətinin sonunda aparılmış təkrar qiymətləndirmə tarixindən qüvvəyə minən AAQ-FSTD H sənədinin şərtlərinə uyğun ekvivalent şəhadətnamə verilir. Bu təkrar qiymətləndirmə və bütün növbəti qiymətləndirmələr AAQ-FSTD H sənədi tətbiq edilməzdən əvvəl aparılmış son qiymətləndirmə zamanı istifadə edilən AAQ-STD 1A sənədinin eyni variantına uyğun aparılır. Hər hansı təkmilləşmə AAQ-FSTD H sənədinin cari tətbiq olunan variantına əsaslanır.

AAQ-FSTD H.032 1 yanvar 2004-cü ildə və ya bu tarixdən sonra və 1 avqust 2008-ci il tarixdən əvvəl tələblərə uyğunluq səviyyəsi yoxlanılmış Uçuş Təlimi Qurğularına (FTD) dair tələblər

1 yanvar 2004-cü ildə və ya bu tarixdən sonra və 1 avqust 2008-ci il tarixdən əvvəl ilkin qiymətləndirmə üçün təqdim edilmiş FTD-yə avtomatik olaraq cari etibarlılıq müddətinin sonunda aparılmış təkrar qiymətləndirmə tarixindən qüvvəyə minən AAQ-FSTD H sənədinin şərtlərinə uyğun ekvivalent şəhadətnamə verilir. Bu təkrar qiymətləndirmə və bütün növbəti qiymətləndirmələr AAQ-FSTD H sənədi tətbiq edilməzdən əvvəl aparılmış son qiymətləndirmə zamanı istifadə edilən AAQ-STD 2H sənədinin eyni variantına uyğun aparılır. Hər hansı təkmilləşmə AAQ-FSTD H sənədinin cari tətbiq olunan variantına əsaslanır.

AAQ-FSTD H.033 1 yanvar 2003-cü ildə və ya bu tarixdən sonra və 1 avqust 2008-ci il tarixdən əvvəl tələblərə uyğunluq səviyyəsi yoxlanılmış Uçuş və naviqasiya prosedurları üzrə təlim trenajoruna (FNPT) dair tələblər

1 yanvar 2003-cü ildə və ya bu tarixdən sonra və 1 avqust 2008-ci il tarixdən əvvəl ilkin qiymətləndirmə üçün təqdim edilmiş FNPT-yə avtomatik olaraq cari etibarlılıq müddətinin sonunda aparılmış təkrar qiymətləndirmə tarixindən qüvvəyə minən AAQ-FSTD H sənədinin şərtlərinə uyğun ekvivalent şəhadətnamə verilir. Bu təkrar qiymətləndirmə və bütün növbəti qiymətləndirmələr AAQ-FSTD H sənədi tətbiq edilməzdən əvvəl aparılmış son qiymətləndirmə zamanı istifadə edilən AAQ-STD 3H sənədinin eyni variantına uyğun aparılır. Hər hansı təkmilləşmə AAQ-FSTD H sənədinin cari tətbiq olunan variantına əsaslanır.

AAQ-FSTD H.035 1 aprel 2001-ci ildən əvvəl tələblərə uyğunluq səviyyəsi yoxlanılmış və təsdiq edilmiş Uçuş şəraitini tam əks etdirən trenajora (FFS) dair tələblər

(a) 1 aprel 2001-ci il tarixdən əvvəl JAA üzvü olan ölkələrin milli qaydalarına uyğun təsdiq edilmiş və ya tələblərə uyğunluq səviyyəsi yoxlanılmış FFS-in ya kateqoriyası dəyişdirilir, ya da aşağıda verilmiş (b) və (s) yarımbəndlərinə uyğun əvvəlki hüquq müddəalarına əsasən fəaliyyətini davam etdirir. Kateqoriyası dəyişdirilməmiş FFS-ə verilən maksimum icazələrin sayı ilkin Milli icazələrdən artıq olmamalıdır.

(b) Bundan əvvəl kateqoriyası dəyişdirilməmiş, yaxud əvvəlki/köhnə hüquq əsasında fəaliyyət göstərməsi təsdiqlənməmiş FFS trenajorları AAQ-FSTD H.030 bəndinə uyğun qiymətləndirilir.

(c) DMAA bundan əvvəl kateqoriyası dəyişdirilməmiş, lakin sınaq zamanı köhnə istinad sənədindən istifadə etmiş FFS trenajorlarını AAQ-FSTD H Uyğunluq Səviyyəsinə ekvivalent olan AG, BG, CG və ya DG səviyyəsinə əsasən qiymətləndirə bilər. Təkmilləşmiş variantlar FFS kateqoriyasının dəyişməsini tələb edir.

(1) Ekvivalent Uyğunluq Səviyyəsinə çatmaq və onu saxlamaq üçün bu FFS uçuş heyəti üzvünün müvafiq təlim və yoxlama prosesinin tamamlanması üçün vacib olan sahələrdə qiymətləndirilməlidir.

(2) FFS aşağıdakı sınaqlardan keçir:

(i) Yoxlama sınaqları;

(ii) Funksional və subyektiv sınaqlar

(d) Kateqoriyası dəyişdirilməyən və sınaq zamanı köhnə istinad sənədlərindən istifadə etməyən FFS xüsusi danışıqlar əsasında attestasiya edilir. Bu FFS Xüsusi Kateqoriyaya aid edilməli və bu sənəddə verilmiş qaydada funksional və subyektiv sınaqlar aparılmalıdır. Buna əlavə olaraq, hər hansı bundan əvvəl təsdiq edilmiş yoxlama sınaqlarından istifadə edilir.

AAQ-FSTD H.036 1 yanvar 2004-cü ildən əvvəl uyğunluğu təsdiq edilmiş Uçuş Təlimi Qurğularına (FTD) dair tələblər

Tətbiq olunmur.

AAQ-FSTD H.037 1 yanvar 2003-cü ildən əvvəl təsdiq edilmiş Uçuşun naviqasiya prosedurları üzrə Təlimatçılara dair tələblər

AAQ-FSTD H.040 FSTD şəhadətnaməsinə dəyişikliklər

(a) *FSTD-ə edilən ciddi dəyişikliklərə dair məlumat vermə tələbi*. Şəhadətnamə verilmiş FSTD istismarçısı aşağıdakı kimi ciddi dəyişikliklərə dair DMAA-ya məlumat verməlidir:

(1) Helikopterdə FSTD şəhadətnaməsinə təsir edir dəyişikliklər.

(2) İstifadə keyfiyyətinə, işə və ya sistemin təqdimatına təsir göstərə biləcək FSTD texniki avadanlıq və/yaxud proqram təchizatında dəyişiklik;

(3) FSTD yerinin dəyişdirilməsi; və

(4) FSTD-nin işinin dayandırılması

FSTD-ə ciddi dəyişikliklər edildikdə və ya FSTD öz ilkin Uyğunluq Səviyyəsinə müvafiq qaydada istifadə edilmədikdə DMAA xüsusi qiymətləndirmə apara bilər.

(b) *FSTD təkmilləşdirilməsi*. FSTD daha yüksək Uyğunluq Səviyyəsinə qədər təkmilləşdirilə bilər. Daha yüksək Uyğunluq Səviyyəsini əldə etmək üçün xüsusi qiymətləndirmə prosesi lazımdır.

(1) Təkmilləşdirmə təklif olunduqda FSTD istismarçısı DMAA-nın təsdiqini almalı və dəyişikliklərin tam təfərrüatını verməlidir. Təkmilləşdirilmənin qiymətləndirilməsi ilkin uyğunluq səviyyəsinin yoxlanıldığı tarixdən bir il sonra həyata keçirilmədikdə, FSTD hətta keçmiş Uyğunluq Səviyyəsində də şəhadətnaməni təzələmək üçün xüsusi qiymətləndirmədən keçməlidir.

(2) FSTD təkmilləşdirilməsi zamanı FSTD istismarçısı xahiş olunan Uyğunluq Səviyyəsi üçün bütün yoxlanış sınaqlarını aparmalıdır. Bundan əvvəl aparılmış qiymətləndirmələrin nəticələri FSTD cari təkmilləşdirilməsi üçün istifadə edilmir.

(c) FSTD yerdəyişməsi

(1) FSTD yeni yerə köçürüldükdə, bu planlaşdırılmış tədbirdən, o cümlədən nəzərdə tutulan aidiyyatı olan hadisələrdən əvvəl DMAA-ya məlumat vermək lazımdır.

(2) FSTD yeni yerdə istismara buraxılmazdan əvvəl FSTD istismarçısı FSTD-nin iş göstəricilərinin ilkin qiymətləndirmə standartlarına uyğun olduğunu təmin etmək üçün yoxlama sınaqlarının ən azı üçdə birini və funksional və subyektiv sınaqları həyata keçirəcək. Sınaq sənədlərinin bir nüsxəsi DMAA tərəfindən yoxlanmaq üçün FSTD qeydləri ilə birgə saxlanmalıdır.

(d) Hazırda şəhadətnaməyə malik olan FSTD-nin işinin dayandırılması

(1) FSTD istismarçısı qurğunu uzun müddətə dayandırmaq istədiyi halda DMAA-ya xəbər verilməli və qurğunun istifadə edilməyəcəyi müddət ərzində müvafiq nəzarət təşkil edilməlidir.

(2) FSTD istismarçısı qurğunun əvvəlki Uyğunluq Səviyyəsində işə qaytarılması prosedurunu DMAA ilə razılaşdırmalıdır.

AAQ-FSTD H.045 Növbədənkənar FSTD Uyğunluq səviyyəsi
(Bax AAQ-FSTD H.045-ə ACJ)

(a) Yeni helikopter proqramları qəbul edilən zaman növbədənkənar Uyğunluq Səviyyəsi əldə etmək imkanı yaratmaq üçün xüsusi tədbirlər görülməlidir

(b) Uçuş şəraitini tam əks etdirən trenajorlar üçün növbədənkənar Uyğunluq Səviyyəsi yalnız A, B və ya C səviyyələrində verilir.

(c) Növbədənkənar Uyğunluq Səviyyəsinin verilməsinə və qüvvədə olması müddətinə dair tələblər və təfərrüat DMAA tərəfindən müəyyən edilir.

AAQ-FSTD H.050 FSTD şəhadətnaməsinin digərinə təhvil verilməsinin mümkünlüyü

FSTD istismarçısı dəyişdirildikdə:

(a) Yeni FSTD istismarçısı FSTD-nin təhvil verilməsi planını razılaşdırmaq üçün DMAA-ya əvvəlcədən məlumat verməlidir.

(b) DMAA-nın razılığı ilə FSTD ilkin JAA şəhadətnaməsi meyarına uyğun olaraq qiymətləndirilmədən keçə bilər.

(c) FSTD öz ilkin standartına uyğun istifadə edilərsə, onun ilkin FSTD Uyğunluq Səviyyəsi bərpa edilə bilər. İstifadəçi təsdiq(lər)inin dəyişdirilməsi də tələb oluna bilər.

AAQ-FSTD H.030-a Əlavə 1
Uçuşu imitasiya edən təlim qurğuları üçün standartlar

Bu Əlavə qurğuların lazımi Uyğunluq Səviyyəsinə çatdırılması üçün Uçuş Şəraitini Tam əks etdirən trenajora (FFS), Uçuş təlimi qurğusuna (FTD), Uçuş və naviqasiya prosedurları üzrə təlim trenajoruna (FNPT) və Əsas cihazlar üzrə Təlim Qurğusuna (BİTD) verilən minimum tələbləri təsvir edir. Bu hissəyə daxil edilmiş bəzi tələblər Uyğunluğu Təsdiq edən Sənədlə (UTS) və bəzi xüsusi müəyyən edilmiş hallarda isə obyektiv sınaqla dəstəklənir. UTS tələblərə necə cavab verildiyini təsvir edir. Sınaq nəticələri tələblərə cavab verildiyini göstərəcək. FSTD standartlarının aşağıda verilmiş cədvəlində Uyğunluğu Təsdiq edən Sənədlər uyğunluq qrafasında verilmişdir.

FNPT qurğusunun Çoxsaylı Heyətin Əməkdaşlığı (MCC) təlimində istifadəsi üçün ümumi texniki tələblər MCC qrafasında verilmiş və MCC təlimi və əməliyyatları üçün lazım olan əlavə sistemlər, cihazlar və göstəricilər təsvir edilmişdir.

MCC (Çoxsaylı Heyətin Əməkdaşlığı) üçün minimum texniki tələblər aşağıdakı əlavələr və ya dəyişikliklər nəzərə alınmaqla II Səviyyəyə verilən tələblərlə eynidir:

1	Çox mühərrikli və çox pilotlu helikopter
2	Mühərrikin sıradan çıxdığı halda ehtiyat iş rejimi CAT A. Amilinə uyğun olmalıdır.
3	Buzu təmizləmə sistemləri
4	Yanğının aşkar edilməsi / söndürülməsi sistemi
5	İkitərəfli idarəetmə qurğuları

6	Avtomatik qalxma rejimli avtopilot
7	2 VHF ötürücüləri
8	2 VHF naviqasiya qəbulediciləri (VOR (bütün istiqamətlər üzrə VHF (çox yüksək tezlikli) radiomayak), İLS (cihazlar üzrə enmə sistemi), DME (məsafə ölçən avadanlıq)) 2 VHF ötürücüləri
9	1 ADF (avtomatik radio pelenqator) qəbuledicisi
10	1 marker qəbuledicisi
11	1 impulslu qəbuledici – ötürücü (transponder)
12	Hava radarı
Aşağıdakı lampalar hər iki pilotun cihaz lövhəsində eyni yerdə quraşdırılmalıdır	
1	Uçuş sürəti
2	Uçuş istiqamətləndiricisi ilə uçuş hündürlüyü
3	Hündürlük cihazı
4	HSİ – planlı naviqasiya cihazı
5	Şaquli sürət
6	ADF – avtomatik radio pelenqator
7	VOR – bütün istiqamətlər üzrə VHF radiomayakı
8	Marker lampası (lazım olduqda)
9	Xronometr (lazım olduqda)

UÇUŞU İMİTASİYA EDƏN TƏLİM QURĞULARI **1.1 Ümumi**		FFS SƏVİYYƏSİ				FTD SƏVİY-YƏSİ		FNPT SƏVİYYƏSİ				UYĞUNLUQ
		A	B	C	D	1	2	I	II	III	MCC	
a.1	Uçuş kabinəsi, simulyasiya edilən helikopter tammiqyaslı modeli. Əlavə tələb olunan uçuş heyəti üzvünün iş yeri və pilot oturacağında arxa tərəfdə tələb olunan arakəsmələr də uçuş kabinəsinin bir hissəsi hesab olunur və helikopteru imitasiya edir. Uçuş kabinəsi, simulyasiya edilən helikopterun tammiqyaslı modeli.	✓	✓	✓	✓							
a.2	Pilot/uçuş kabinəsi, təlimatçı pilotun yerini nəzərə almaqla, tamamilə bağlıdır Diqqətin yayınmasının qarşısını almaq üçün pilot/uçuş kabinəsi, təlimatçı pilotun yerini nəzərə almaqla, kifayət qədər bağlıdır, simulyasiya edilən helikopterni və ya helikopter sinfini təmsil edir.						✓	✓	✓	✓		
b1	Tamhəcmli funksiyaları idarəetmə panelləri, dəyişdirici açarlar (tumblerlər), lazımi istiqamətdə və zəruri hərəkət diapozonu ilə istifadə ediləcək uçuşu idarə edən əsas və ikinci dərəcəli cihazlar. Funksiyaların idarə edilməsi, dəyişdirici açarlar (tumblerlər), cihazlar, treninqin keçirilməsi üçün zəruri olan əsas və ikinci dərəcəli idarəetmə orqanları kabinənin münasib hissəsində yerləşməlidir.	✓	✓	✓	✓							1-ci səviyyəli FSTD üçün, imitasiya edilən sistem üçün tələb olunduğu kimi. Funksional tumblerlər, idarəetmə düymələri və klavişlər əlavə edilməklə, elektronika vasitəsilə əks olunan imiclərdən (şəkillərdən) istifadə münasibdir. Bu opsiya FFS-dəki analoji cihazlar üçün münasib deyil.

UÇUŞU İMİTASİYA EDƏN TƏLİM QURĞULARI **1.1 Ümumi**		FFS SƏVİYYƏSİ				FTD SƏVİYYƏSİ			FNPT SƏVİYYƏSİ				UYĞUNLUQ
		A	B	C	D	1	2	3	I	II	III	MCC	
c.1	Panel və cihazların işıqlandırılması imitasiya edilən helikoptera uyğun olmalıdır.					✓	✓						
c.2	Kabinəətrafı işıqlandırma sistemi vizual displeyə dinamik uyğun olmalı və treninqin keçirilməsi üçün kifayət etməlidir.								✓	✓		✓	
d.1	Kabinədəki müvafiq qoruyucular imitasiya edilən helikopterdakı kimi quraşdırılmalı və istismar prosedurlarında yaxud dayanmalar və ya ekipajın cavab reaksiyaları zamanı işə salınmalıdır.						✓			✓		✓	
